

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 90 (21.751)**

***12 may 2017-ci il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Mayın 11-də Pirallahı qəsəbəsindəki Səməd Vurğun küçəsinin yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım əvvəlcə küçənin yenidən qurulması işlərini əks etdirən stendə baxıblar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verilib ki, yenidən qurulan avtomobil yolu Pirallahı körpüsü və Pirallahı-Qala avtomobil yolundan istifadə etməklə, qəsəbə sakinlərinin Heydər Əliyev prospekti vasitəsilə Bakı şəhərinin mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh və digər qəsəbələrə rahat çıxışına imkan verir.

Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Pirallahı rayonunda yeni körpünün açılışında iştirak ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı körpüsü və yanaşma yollarında görülən işləri əks etdirən stendə baxıblar.



## Müasir Naxçıvan Muxtar Respublikasının inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır

*Ulu öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin yurdu olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderdir. O, bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. Ümummilli liderin ən böyük arzusu doğma Naxçıvanı bugünkü kimi hərtərəfli inkişaf etmiş abad bir diyar kimi görmək idi.*

Qədim diyarda dünyaya göz açan, boya-başa çatan gələcəyin böyük dahisi ilk təhsilini də Naxçıvanda aldı, 1939-cu ildə pedaqoji məktəbi uğurla bitirdi. Ulu öndərimiz təhsilinin həmin mərhələsini yüksək qiymətləndirərək deyib: ***“Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək... Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb”.***

Ulu öndər yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı unutmadı, qədim diyarı daim diqqət mərkəzində saxladı. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu il iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul etdi. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında ümummilli liderin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin “Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında” 1974-cü il 8 yanvar tarixli birgə qərarının mühüm rolu oldu. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdi. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin dövrü belə dəyərləndirərək deyib: ***“Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı”.***

Böyük tarixi şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1970-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə olub. İlk səfər 1974-cü il fevralın 22-də reallaşıb. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan Kommunist Partiyası Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, daha sonra 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilib, gələcək perspektivə hesablanmış addımlar atılıb.

Aparılan kompleks tədbirlər sayəsində 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb.

SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olan xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada, necə deyərlər, ucu-bucağı görünməyən bir ölkənin problemlərinin həlli ilə məşğul olsa da, bir an belə, doğma Naxçıvanı unutmurdu. O, muxtar respublikada görülən quruculuq işlərini həmişə yaxından izləyir, tövsiyə və tapşırıqlarını əsirgəmir, ermənilərin Naxçıvana və Dağlıq Qarabağa iddialarına qarşı ciddi mübarizə aparırdı. Təsadüfi deyil ki, ulu öndər 1987-ci ilin noyabr ayında rəhbər vəzifədən uzaqlaşdırılandan dərhal sonra Azərbaycanın ağrı-acılarla dolu dövrü başladı, meydanı boş görən ermənilər çirkin iddialarını daha yüksək tribunalardan səsləndirməyə başladılar.

Dahi şəxsiyyət Moskvada rahat yaşaya bilərdi. Ancaq O, sakitliyi və rahatlığı deyil, Vətəninin taleyini düşünürdü. Buna görə də ulu öndər Vətənə qayıtmaq istəyirdi. Naxçıvanlılar da qədim diyarın yetişdirdiyi böyük dövlət xadiminin gəlişini səbirsizliklə gözləyirdilər. Onun 1990-cı il iyulun 22-də möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, əhali hədsiz sevgi, məhəbbət və inamla qarşıladı. Xəyanətə yol vermiş mərkəzi hakimiyyətin bütün cəhdlərinə baxmayaraq, naxçıvanlılar qısa müddətdə dahi şəxsiyyəti özlərinə rəhbər seçdilər, onun ətrafında sıx birləşdilər.

Ulu öndər Heydər Əliyev doğma torpağa gəlişi ilə naxçıvanlıların sabaha inamını özlərinə qaytardı, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail oldu.

Ümummilli liderimizin Naxçıvana gəlişi, xalqın təkidli tələbi və istəyi ilə muxtar respublikanın rəhbəri seçilərək son dərəcə ağır vəziyyətdə olan bu qədim diyarı mətanətlə qoruması, əsl nicat yoluna çıxararaq hərtərəfli yüksəlişə qovuşdurması böyük əhəmiyyət daşımaqla, bütövlükdə, ölkəmiz üçün mühüm bir hadisəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözləri ilə ifadə etsək, ***“Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı”.***

Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurlarını görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə ulu öndərimizin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Ancaq görkəmli dövlət xadimi Heydər Əliyev canı qədər sevdiyi doğma Naxçıvandan ayrılmaq istəmirdi. Digər tərəfdən xalqının görkəmli oğlu ölkəmizdə baş verən hadisələrə laqeyd də qala bilməzdi. Necə ki qalmadı.

Respublikamıza ikinci dəfə rəhbərliyi illərində ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda fəal, yaradıcı surətdə davam etdirildi. Bu quruculuq və inkişaf konsepsiyası sonrakı illərdə özünü tam doğruldaraq bir idarəetmə modeli kimi tarixə düşdü. Fəaliyyətini dayandırmış sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması sayəsində 1993-2003-cü illərdə muxtar respublikada sənaye məhsulu 3,4 dəfə artdı. Həmin dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Ümumi daxili məhsulun həcmi 6,8 dəfə, əhalinin gəlirləri isə 10,5 dəfə artdı. Bütün bu misilsiz nailiyyətlərin hamısı böyük dövlət xadimi Heydər Əliyev siyasi kursunun yüksək səviyyədə, ardıcıl və dönmədən davam etdirilməsi nəticəsində qazanıldı. Bu möhtəşəm təlim sabahkı uğurlarımızın da etibarlı qarantıdır. Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu işıqlandıran sönməz məşəldir.

***“Siz sübut etdiniz ki, öz torpağınıza, xalqınıza, millətinizə, müqəddəs, müstəqil Azərbaycana sədaqətlisiniz və mənim də həm Azərbaycan xalqına, həm də Azərbaycan torpağına, o cümlədən öz doğma yurdum Naxçıvana sədaqətimin şahidi oldunuz”***, – deyən ulu öndər Azərbaycanda ikinci hakimiyyəti dövründə Naxçıvan Muxtar Respublikasında görülən genişmiqyaslı işləri daim dəstəklədi. Burada aparılan kompleks quruculuq işləri ilə yaxından tanış olmaq, bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün 4 dəfə muxtar respublikaya səfər etdi.

Ulu öndərin Naxçıvanın bu günü və gələcəyi üçün gördüyü ən böyük işlərdən biri də qədim diyarın muxtariyyətinin qorunub saxlanılması oldu. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş, müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirdi. Həmin Konstitusiyanın VIII fəsli Naxçıvan Muxtar Respublikası ilə əlaqədardır. Konstitusiyanın 134-cü maddəsində deyilir: *“Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir”.*



*Ardı 2-ci səhifədə*

Ümummilli lider Heydər Əliyevin ölkə Prezidenti kimi "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı 1999-cu il 4 fevral tarixli Fərmanında Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amillər belə ifadə olunub: ***"Azərbaycan Xalq Cümhuriyyəti dövründədək sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi".***

Ulu öndərimiz həmişə Naxçıvanın inkişaf etməsini, abadlaşmasını istəyirdi. Bu gün onun yolunu uğurla davam etdirənlər dahi şəxsiyyətin arzularını inamla həyata keçirirlər. Ötən illər ərzində muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan dövlət proqramları və hazırda icrası davam etdirilən "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", həmçinin "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" ümumi inkişafa təkan verib, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayıb. Bu gün muxtar respublikada avtomobil və tikinti materialları, ərzaq və məişət əşyaları istehsalı ilə məşğul olan çoxsaylı müəssisələr fəaliyyət göstərir. 1996-cı ildə Naxçıvanda, ümumilikdə, 40 sənaye müəssisəsi vardısa, bu gün onların sayı 11 dəfə artırılaraq 442-yə çatdırılıb. Yeni fəaliyyətə başlayan müəssisələr, əsasən, yerli xammaldan istifadə əsasında öz fəaliyyətlərini qurublar ki, bu da hazır məhsulun daha ucuz qiymətə istehlakçılara çatdırılmasına imkan yaradır. Hazırda muxtar respublikada mövcud olan 442 istehsal müəssisəsindən 311-i və ya 70 faizi tamamilə yerli xammaldan istifadə edərək fəaliyyət göstərir. Bu hesaba bir tərəfdən digər sahələr də inkişaf edir, ikinci tərəfdən isə daxili bazar etibarlı şəkildə qorunur.

Tarixin heç bir dövründə muxtar respublikada bu səviyyədə abadlıq-quruculuq işləri görülməyib, bugünkü qədər məhsul istehsal edilməyib. Təsəvvür edin ki, 1996-cı ildə muxtar respublikada cəmi 10 adda məhsul istehsal edilirdisə, bu gün 366 adda məhsul istehsal olunur. Bunların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. Qüruverici haldır ki, 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir. Muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi də 1995-ci illə müqayisədə 59,1 dəfə artıb. İqtisadiyyatın aparıcı sahələrindən olan kənd təsərrüfatının və sənayenin inkişafında əldə edilən nailiyyətlər daha böyük uğurlara zəmin yaradır. Belə ki, ötən dövr ərzində sənaye məhsulunun həcmi 103,2 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 11,1 dəfə artıb. Yerli istehsalın artması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını gücləndirib, idxalın həcminin isə azalmasına səbəb olub.

Xarici ticarət dövriyyəsi ümumi inkişafı əks etdirən mühüm makroiqtisadi göstəricilərdən biri olmaqla yanaşı, eyni zamanda ixracın və idxalın cəmidir. 2009-cu ildən muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınıb, ixracın həcmi idxalı üstələyib. Həmin dövrdə xarici ticarət dövriyyəsinin 51 faizini ixrac, 49 faizini isə idxal təşkil edib.

Ötən illər ərzində muxtar respublikada tikinti-quruculuq işləri geniş vüsət alıb, nəhəng istehsal müəssisələri, çoxsaylı yaşayış binaları, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülüb. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, gözəlləşdirib. Təkcə ötən il 13 kənd və 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib.

Cari ildə də bu işlər davam etdirilib. Belə ki, quruculuq tədbirləri çərçivəsində 2017-ci ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 192 milyon 60 min 900 manat həcmində investisiya yönəldilib. İnvestisiya qoyuluşlarının 178 milyon 160 min manatı və ya 92,8 faizi tikinti-quraşdırma işlərində istifadə edilib.

*Qazanılan nəticələr bir daha deməyə əsas verir ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin siyasi xətti uğurla, sədaqətlə, inamla davam etdirilir. Bugünkü Naxçıvan məhz dahi şəxsiyyətin arzularındakı Naxçıvandır. Gündən-günə çiçəklənən, inkişaf edən, abadlaşan, dosta qürur, fəxarət bəxş edən, düşmənə gözdağı olan Naxçıvan. Bunu reallaşdıranlar isə ümummilli lider Heydər Əliyevin nurlu yoluna, dövlətçilik ideyalarına sədaqətli olan, xalqa, doğma Vətənə xidməti həyat idealına çevirən vətənpərvər, fədakar naxçıvanlılardır.*

**Rauf KƏNGƏRLİ**

## Elmi-praktik konfrans keçirilib

***Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirilib.***

İncəsənət fakültəsində təşkil olunan tədbirdən əvvəl ulu öndərimizin həyat və fəaliyyətindən bəhs edən sərgiyə baxış olub. Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor Saleh Məhərrəmov ömrünü Azərbaycanın müstəqilliyə qovuşmasına, onun qurtuluşuna, inkişaf və tərəqqisinə həsr edən dahi şəxsiyyətin həyat və fəaliyyətindən, xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən danışıb. "Heydər Əliyev ideyaları nəinki Azərbaycanda, ümumilikdə, dünyada sabitliyə və inkişafa xidmət edir", – deyən rektor dahi rəhbərin gələcəkdə də dünyanın tərəqqi və sülhsevər millətləri üçün ilham qaynağı olacağını vurğulayıb.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov "Heydər Əliyev XX yüzilliyin böyük siyasi dühası və milli istiqlalımızın banisidir" adlı məruzəsində xalqımızın müstəqil və güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirən, müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, iqtisadi əsaslarını yaradan ulu öndərimizin fenomen şəxsiyyət kimi tarixdə iz qoyan uzaqgörən fəaliyyətindən bəhs edib.

Qeyd olunub ki, hakimiyyətə gəldiyi ilk dövrlərdən etibarən Azərbaycançılıq ideyasına sadiq qalan dahi şəxsiyyət çətin vəziyyətdə belə, öz xalqına arxa durmağı bacarıb, Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında, milli ruhun yüksəlişində əvəzsiz rol oynayıb. Heydər Əliyev siyasətinin bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda uğurla davam etdirilməsi ölkəmizin gələcək tərəqqisinə, Azərbaycanın daha qüdrətli dövlətə çevriləcəyinə mütləq əminlik yaradır.

Tədbir tələbələr tərəfindən ümummilli liderə həsr olunmuş şeirlərin bədii qiraəti ilə sona çatıb.

**Səadət ƏLİYEVA**

## Heydər Əliyev Muzeyi ilə 220 təhsil müəssisəsi arasında interaktiv əlaqə yaradılıb

***Muxtar respublikanın ümumtəhsil məktəblərində bir dərs saatı ümummilli lider Heydər Əliyevə həsr olunub. Heydər Əliyev Muzeyi ilə əlaqə yaradılaraq interaktiv dərs keçilib.***

220 təhsil müəssisəsi canlı bağlantı vasitəsilə muzeyə qoşularaq ulu öndərin həyat və fəaliyyəti ilə bağlı "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda keçilən interaktiv dərsi izləyib.

Muzeyin direktoru Ramil Orucəliyev ulu öndərin həyat və fəaliyyəti, şəxsi arxivindən götürülmüş ayrı-ayrı dövrlərə aid fotolar, habelə müxtəlif eksponatlar barədə ətraflı məlumat verib.

"Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat yolu bütöv bir xalqın və ölkənin taleyində mühüm rol oynayır", – deyən Ramil Orucəliyev vurğulayıb ki, ümummilli lider Heydər Əliyev belə şəxsiyyətlərin fövqündə dayanır. Ulu öndərimiz xalqımızın arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali idealların gerçəkləşməsinə nail olub. Bu dahi insanın mənalı həyat yolu müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilib. Görkəmli dövlət xadiminin əziz xatirəsi hər bir azərbaycanlının qəlbində dərin kök salıb. Ümummilli liderimizin ölkəmiz üçün göstərdiyi misilsiz xidmətlər tariximizin şanlı səhifəsinə çevrilib. Bu böyük insanın həyat yolu hər bir məktəbliyə, hər bir gəncə nümunədir.

**Nail ƏSGƏROV**

## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında tədbir

*"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbir keçirilib.*



Diviziyanın zabiti, polkovnik-leytenant Hamlet Qurbanov çıxış edərək vurğulayıb ki, dahi öndər Heydər Əliyev tərəfindən milli ordunun formalaşması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması və torpaqlarımızın müdafiəsi ilə bağlı mühüm addımlar atılıb. Azərbaycanda milli sərhəd qoşunlarının yaradılması və fəaliyyətinin səmərəli təşkili də ulu öndərin adı ilə bağlıdır.

Bu gün hər bir Azərbaycan sərhədçisi sərhədlərimizin toxunulmazlığını qorumaq üçün bütün qüvvə və bacarığını səfərbər edir.

Tədbirin bədii hissəsində hərbi hissənin orkestri, Culfa Rayon Uşaq Musiqi Məktəbinin kollektivi, hərbi hissənin uşaq bağçasının balaca fidanları konsert proqramı ilə çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə humanitar aksiyalar təşkil edilib

Bu münasibətlə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin səyyar klinikasının Naxçıvan Muxtar Respublika Xəstəxanasında təşkil etdiyi humanitar tibbi aksiya da ümummilli liderin doğum günü ərəfəsində başlayıb. Həkim-oftalmoloqlar, anestezioloqlar, rezident-həkimlər, tibb bacıları və texniki heyətdən ibarət geniş səyyar briqada iki gün ərzində 170-dən çox müayinə aparıb, onlara məsləhət və tövsiyələr verib. Səyyar aksiyada göstərilən xidmətlərdən yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclər də istifadə ediblər. Bu aksiya onlarla ailənin sevincinə səbəb olub.

Mərkəzin baş həkimi Aytən Sultanova Naxçıvan Muxtar Respublika Xəstəxanasında belə müayinələrin ayda bir dəfə olmaqla, ilboyu keçiriləcəyini bildirib.

* * *

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Şahbuz rayonunda keçirdiyi humanitar tibbi aksiyada həkim briqadasının üzvləri 57 nəfəri ambulator müayinələrdən keçirərək müvafiq tövsiyələr veriblər. Cərrahi müdaxiləyə ehtiyacı olanlar üzərində uroloji, proktoloji qiqant yırtıq, öd kisəsi əməliyyatları aparılıb. Müayinə və əməliyyatların həyata keçirilməsində həkim-cərrahlardan Cabi İsmayılov, Səfər Qədimov, Valid Kazımov, anestezioloqlardan Bəxtiyar Hüseynov, Elsevər Ağəliyevlə yanaşı, yerli həkim və orta tibb işçiləri də iştirak ediblər.

Şahbuz rayonundakı Kükü kənd sakini Nicat Əliyevin üzərində aparılan uroloji əməliyyat uğurla başa çatdırılıb, xəstə birgünlük müşahidədən sonra evə buraxılıb. Yüksəkixtisaslı heyət yerli həkimlərə müasir tibbi avadanlıqlardan istifadə qaydaları barədə də ətraflı məlumat veriblər. Laboratoriyada ümumi analizlərin olunması, infeksiyaların təyini, aparatların işləmə mexanizmi yerli həkim və tibb işçilərinə izah edilib.

* * *

Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının həkim briqadası mayın 9-dan başlayaraq Ordubad Rayon Mərkəzi Xəstəxanasında 29 nəfərlik həkim briqadası ilə sakinləri müayinə və müalicə edir.

Xəstəxananın baş həkimi Telman İbadovun sözlərinə görə, komissiyanın tərkibində müxtəlif sahələri təmsil edən həkimlər var. Həkimlər tərəfindən müayinə və müalicələr, cərrahi əməliyyatlar aparılır.

Qeyd edək ki, müayinə və müalicələr mayın 12-dək davam edəcək.

* * *

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Azərbaycan Minimal İnvaziv və Endoskopik Cərrahlar Cəmiyyəti, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası, Azərbaycan-Almaniya Tibbi Əməkdaşlıq Cəmiyyəti və Almaz Akademik Tibbi Treninq Mərkəzi ilə birgə minimal invaziv cərrahiyyə üzrə treninq kursları keçirib. Kurslarda laparoskopik cərrahiyyə, ürək cərrahiyyəsi, ginekologiya, urologiya və ümumi cərrahiyyə üzrə treninqlərin təşkili, minimal invaziv cərrahiyyənin aktual problemlərinə həsr edilmiş çıxışlar və diskussiyalar aparılıb. Təlimlərdə Naxçıvan Muxtar Respublika Xəstəxanası ilə yanaşı, Diaqnostika-Müalicə Mərkəzinin, Mərkəzi Uşaq Xəstəxanasının və Doğum Mərkəzinin həkim-cərrahları, rezident və tələbələr iştirak ediblər.

Treninqlər minimal invaziv cərrahiyyənin aktual problemlərinə həsr edilmiş çıxışlar və diskussiyalar, ağır kliniki halların müzakirəsi şəklində başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## *"İslam mədəniyyəti və Naxçıvan"* adlı inşa yazı müsabiqəsi başa çatıb

*Muxtar respublikanın ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında keçirilən həmin müsabiqənin qalibləri mükafatlandırılıblar.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rüstəm Həsənov çıxış edərək müsabiqənin məqsəd və mahiyyəti barədə danışıblar.



Çıxışlarda bildirilib ki, müsabiqənin məqsədi tarixən Yaxın və Orta Şərqin gözəl şəhərlərindən biri kimi tanınan, İslam mədəniyyəti nümunələri ilə zəngin olan Naxçıvanı İslam mədəniyyətinin paytaxtı kimi yeniyetmə və gənclərin gözü ilə təqdim etmək, onların bu sahədəki biliyini üzə çıxarmaqdır.

Vurğulanıb ki, muxtar respublikamızın İslam mədəniyyətinə, incəsənətinə, mədəniyyət abidələrinə, tarixinə həsr olunmuş inşa yazılar rayon təhsil şöbələri tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə təqdim olunub və onlardan ən yaxşıları seçilərək mükafata layiq görülüb.

Qeyd edək ki, bu müsabiqə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilib.

Müsabiqədə 4 nəfər həvəsləndirici, 3 nəfər III, 2 nəfər II, 1 nəfər isə I yerə layiq görülüb. Onlara diplom və müxtəlif hədiyyələr təqdim olunub. Fərqlənən və mükafatçılar sırasına düşə bilməyən 5 iştirakçı isə Gənclər Fondunun və Təhsil Nazirliyinin xüsusi diplomları ilə təltif edilib.

**Fatma BABAYEVA**

Sosial şəbəkələrdə Naxçıvan mövzusu

## Naxçıvan turizmçilərin gözü ilə

***Turizm sektorunun inkişafı üçün aşağıdakı şərtlərin olması vacibdir: mövcud təbii-coğrafi şərait, zəruri infrastruktur, sabitlik, zəngin tarixi-mədəni irs, yüksək xidmət, münasib qiymət və sair. Bu amillərin hər birini özündə birləşdirən Naxçıvan Muxtar Respublikasında çoxşaxəli turizm imkanları vardır. Dövlət tərəfindən turizm sektoruna göstərilən dəstək isə bu sahənin inkişafını daha da sürətləndirib. Ötən il martın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə əlaqədar qurumlara müvafiq tapşırıqlar verilib. Bu tapşırıqların icrası istiqamətində, xüsusilə muxtar respublikanın turizm potensialının təbliği sahəsində ardıcıl tədbirlər görülür.***

Turizm elə bir sahədir ki, davamlı təbliğat işlərinin aparılmasını şərtləndirir. Mövsümün başlandığı bir vaxtda muxtar respublikanın turizm potensialını təbliğ etmək, eləcə də turizmi canlandırmaq, yeni partnyorlar qazanmaq, xarici turizm firmaları ilə əlaqələri gücləndirmək mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə aprel ayında "Nəqşicahan Holdinq" tərəfindən qədim diyara info-tur təşkil edilib. İnfo-tur çərçivəsində Türkiyə, İran, Kipr və Küveytdən, eləcə də paytaxt Bakıdan, ümumilikdə, 220 sahibkar və turizmçi Naxçıvana gəlib.

Naxçıvana təşkil edilən info-tur həm xarici, həm də yerli turizm firmalarının fəaliyyətlərini genişləndirmələri üçün bir stimul oldu. Digər tərəfdən, muxtar respublikanın turizm potensialının təbliğinə şərait yaratdı. İnfo-tur iştirakçılarının geri döndükdən sonra sosial şəbəkələrdə Naxçıvan təəssüratları barədə yazdıqları statuslar, paylaşdıqları çoxsaylı fotoşəkillər və videogörüntülər də bunu bir daha təsdiq edir.

"Travel news" saytının əməkdaşı Rəhim Qədirov info-turdan hazırladığı 3 hissəli videonu paylaşıb. Videolarda Naxçıvanın turizm ehtiyatlarından bəhs edilir, Əlincəqala, Batabat yaylağı, Əshabi-Kəhf, Duzdağ, Açıq Səma Altında Muzey haqqında məlumat verilir. Facebook səhifəsində çəkdiyi fotoları da paylaşan Rəhim Qədirov yazır: *"Naxçıvan turizm üçün ideal məkandır. Sakit və təmiz küçələr, müalicə mərkəzləri, tarixi məkanlar, dırmanma və alpinizm üçün şərait, müxtəlif otel və restoranlar... Ümumiyyətlə, çox bəyəndim. Hətta ən ucqar kəndlərdə belə, təmirli məktəblər var. Qanunlar işləyir. Demək olar ki, yolların hamısı təmirli idi. Havası, insanları da gözəl".*

İnfo-tur iştirakçısı Murad Karamov da öz facebook səhifəsində Naxçıvanla bağlı fotolar paylaşıb, səfər təəssüratlarını bölüşüb: *"Əlincə qalası döyüş tariximizin qürurverici səhifələrindəndir. Onu görüb hiss etmək, məncə, hər bir azərbaycanlının borcudur. Əlincə yüz illərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinə qulluq göstərsə də, tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamət yeri kimi tanınmış, çağının ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan böyük cahangir Əmir Teymuru belə, möhkəmliyi ilə heyrətləndirmişdir".*

*"Naxçıvan bizi artıq birinci gündən təəccübləndirə bildi. Duzdağ mağarasını və Möminə xatın türbəsini hər bir azərbaycanlı görməlidir"*, – bunu isə Mircavid Həsənov öz səhifəsində Naxçıvanla bağlı fotolar paylaşarkən yazıb.

Kavkaz.ws saytının əməkdaşı Günel Həsənova Naxçıvana təşkil edilən info-turla bağlı rus dilində məqalə dərc etdirib. "Duzdağ" otel və Duzdağ Fizioterapiya Mərkəzinin imkanlarından yazan müəllif həm də əyani olaraq oxucuları fotolar vasitəsilə də bəhs etdiyi məkanlar barədə məlumatlandırır. "Naxçıvan – Nuhun yurdu, Azərbaycanın qədim torpağı" sərlövhəli məqalədə müəllif oxucularını qiyabi də olsa, Naxçıvana səyahətə aparır: *"Naxçıvan nəinki Azərbaycanın, dünyanın ən qədim şəhərlərindən biridir. Şəhərin Nuh Peyğəmbər tərəfindən əsasının qoyulması barədə məlumatlar mövcuddur. Naxçıvanı cəsarətlə açıq səma altında muzey adlandırmaq olar. Burada müxtəlif əsrlərə aid Şərq memarlığının nadir inciləri qorunub saxlanılır. Bu tarixi abidələr şəhərin müasirliyi ilə vəhdət təşkil edir".* Sonra müəllif XII əsr yadigarı olan Möminə xatın türbəsi, Xan sarayı, Əlincəqala haqqında söhbət açır, Əshabi-Kəhf əfsanəsini nəql edir. Naxçıvanqala və Nuh Peyğəmbərin qəbirüstü abidəsi ilə bağlı məlumatları oxucularının diqqətinə çatdırır: *"Naxçıvanda Nuh Peyğəmbərlə bağlı çoxlu rəvayətlər dolaşmaqdadır. Ümumdünya tufanı zamanı Nuhun gəmisi Haçadağa toxunub və Qapıcığın zirvəsində məskən salıb. Ətraf ərazilərdə Nəbi yurdu, Nuhdaban və digər toponimlər bu yerlərin Nuhla bağlılığına dəlalət edir".* Muxtar respublikanın turizm potensialından geniş bəhs edən müəllif daha sonra yazır: *"Naxçıvanın təbiəti də gözəldir. Ərazi dağlıqdır, çoxlu sayda çaylar, mineral bulaqlar, meşələr mövcuddur. Şəhərin yaxınlığında Uzunoba İstirahət Kompleksi fəaliyyət göstərir. Çimərliyin sahil xətti 280 metrə çatır. Burada istirahət məqsədilə hər cür şərait yaradılıb. Batabat kurort zonası isə Naxçıvan şəhərindən, təqribən, 62 kilometr məsafədə yerləşir. Dağ havası, mineral bulaqları, gözəl iqlimi və əsrarəngiz peyzaj insanın əhvalına gözəl təsir edir. Batabat yaylağı dəniz səviyyəsindən 2500 metr hündürlükdədir. Bu gölün "Üzən ada"sı onu qeyri-adi edir. İstirahətin ən yaxşı ünvanlarından biri də Ağbulaq İstirahət Mərkəzidir. Təmiz dağ havası və oteldəki rahatlıq turistlərin yaxşı istirahət etməsinə zəmanətdir"*, – deyə Günel Həsənova sonda Naxçıvanı yaxından tanımağa imkan yaradan info-turun təşkilatçılarına öz minnətdarlığını bildirir.



İrandan gəlmiş info-tur iştirakçıları da səyahət etdikləri turizm obyektlərindən çəkdikləri fotoları və Naxçıvanla bağlı məlumatları öz səhifələrində yerləşdiriblər. Tehranın "Xətte-sahili" turizm şirkətinin səhifəsində müxtəlif ünvanlardan çəkilmiş fotolar yer alıb.

"AFF travel" şirkəti tərəfindən *Duzdağ Fizioterapiya Mərkəzinin müalicə imkanlarından bəhs edən 10 min ədəd buklet hazırlanaraq* turizm obyektlərinə göndərilib.

İnfo-tur iştirakçısı Ruslan Quliyev Naxçıvanın turizm obyektlərindən şəkillər çəkərək öz səhifəsində paylaşıb. Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti, Qlobal Sağlamlıq Turizm Təşkilatının vitse-prezidenti Ruslan Quliyev Sankt-Peterburqda, Qazaxıstanda turizmlə bağlı keçirilən tədbirlərdə, İordaniya Haşimilər Krallığının paytaxtı Əmmanda "Qlobal Sağlıq Turizmi Forumu"nda Duzdağla bağlı geniş təbliğat işləri aparıb. Azərbaycanın turizm potensialı ilə bağlı nəşrlərdə Duzdağa ayrıca yer verilib.

"Berq travel" şirkəti tərəfindən info-turdan sonra Naxçıvana turlar təşkil edilib. "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə və muxtar respublikanın digər dini turizm obyektlərinə növbəti tur may ayının 19-na planlaşdırılıb.

Naxçıvan öz tarixi, müasir infrastrukturu, mədəniyyəti, incəsənəti, unikal təbiət abidələri, mətbəxi, folklor kollektivləri, bənzərsiz sənət nümunələri yaradan sənətkarları, qonaqpərvərliyi, sabitliyi ilə dünyanın istənilən ölkəsindən gələn turisti heyrətləndirməyə qadirdir.

Turizm ümumxalq işidir. Hər birimiz Naxçıvanın təbliğinə çalışmaqla, bu məqsədlə sosial şəbəkələrdəki imkanlarımızdan istifadə etməklə turizmin muxtar respublika iqtisadiyyatındakı rolunu gücləndirə və Azərbaycanın bu qədim və gözəl guşəsinin daha geniş miqyasda tanınmasına töhfəmizi vermiş olarıq. Turizmin inkişafı Naxçıvan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə dəstəkdir. Gəlin Naxçıvanın təbliği istiqamətində həmrəy olaq, gücümüzü, vətənpərvərliyimizi nümayiş etdirək.

**Ruhiyyə RƏSULOVA**

## Xaraba Gilan orta əsrlərin mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olub

***Naxçıvan Muxtar Respublikasının coğrafi ərazisi tarixilik baxımından ölkəmizdə, eləcə də Cənubi Qafqazda özünəməxsusluğu ilə seçilir. Regionun yaşayış məskəni kimi minilliklərə gedib çıxan tarixinə buranın hər qarışında rast gəlmək olar. Aparılan arxeoloji təhlillər bu qədim Azərbaycan diyarının zəngin tarixə və mədəniyyətə malik olduğunu dəfələrlə sübut edib. Bu zənginliyin maraqlı tərəflərindən biri də odur ki, muxtar respublikada şəhər mədəniyyətinin formalaşdığı, mühüm ticarət və sənətkarlıq mərkəzlərinə çevrilmiş coğrafi ərazilər mövcuddur. Belə mədəni mərkəzlərdən biri də Ordubad rayonu ərazisində yerləşən Xaraba Gilan (Kiran, Gilan) orta əsr şəhər yeridir.***

Sahəsi 100 hektardan çox olan Xaraba Gilan 1926-1929-cu illərdə və 1976-cı ildən tədqiq olunur. Abidənin qərb tərəfində eradan əvvəl II-I minilliklərə aid yaşayış məskəni və nekropol aşkar edilib. "Naxçıvan Abidələri Ensiklopediyası"nda göstərilir ki, buradakı Narınqalanın sahəsi 10 hektardan çoxdur və vaxtilə məhəllələrlə birlikdə qala divarları ilə əhatə olunmuşdu. Eyni zamanda qala divarları dördkünc və dairəvi bürclərlə möhkəmləndirilmişdi. Daş, çiy və bişmiş kərpicdən yaşayış evləri, karvansaralar, türbələr, məscid, habelə sənətkarlıq ocaqları və digər tikinti qalıqları aşkar edilmiş, xeyli maddi-mədəniyyət nümunəsi tapılmışdır. Tapıntılar zamanı XII-XIV əsrlərə aid gil qab və memarlıq fraqmentləri üzərində kufi, nəsx xətləri ilə yazılara rast gəlinib. Xaraba Gilan abidəsini tədqiq edən alimlər burada şəhər mədəniyyətinin antik dövrdə – eradan əvvəl V-IV əsrlərdə yarandığını, orta əsrlərdən isə bu şəhərin Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olduğunu bildirirlər. Tədqiqatlar nəticəsində aydınlaşıb ki, Kiran şəhərinin dağıdılması monqol istilaları zamanı baş verib.

Orta əsr şəhərlərinə xas qala divarları, qeyd etdiyimiz kimi, Xaraba Gilanda da izlənilib. Ətraf yerlərə nisbətən hündür dağın üzərində yerləşən Narınqalanın ətrafı hər tərəfdən sıldırım qayalarla əhatə olunub. Buna baxmayaraq, yaşayış yeri müdafiə divarları ilə əlavə olaraq möhkəmləndirilib. Qala divarları dördkünc və yarımdairəvi formalı bürclərlə möhkəmləndirilib. İçərisində yaşayış binalarının və ictimai binaların qalıqları var. Arxeoloji tapıntılar XII-XIV əsrlərə aid edilir.

"Naxçıvan Abidələri Ensiklopediyası"nda qeyd olunur ki, nekropol Xaraba Gilan şəhər yerinin şimal-şərq hissəsində yerləşir. Burada qülləli və kubşəkilli türbələrdən başqa daş hasarla əhatələnmiş qrup və tək qəbirlər var. Qrup qəbirlər türbələrdən bir qədər aşağıda dağın ətəyində, tək qəbirlər isə türbələrə yaxın, bəziləri isə türbələrin enli kürsülüyü üzərində yerləşib. Tək qəbirlərin üstü pilləli formada işlənib, başdaşı yerinə isə hündürlüyü 70-80 santimetr olan əhəngdən tökmə üsulu ilə hazırlanmış dördbucaqlı daş qoyulub. Bu əhəng daşın ortasına da tökmə üsulu ilə həndəsi ornament, haşiyələrinə ərəb əlifbası ilə yazılmış "Qurani-Kərim"dən ayələr və digər yazılar salınıb. Qrup qəbirlərdə isə heç bir yerüstü əlamət yoxdur. Bu qəbirlərin yanları və üstü irihəcmli daş plitələrdən qurulmuşdur. Ehtimal olunur ki, bu qəbirlərdə yoluxucu xəstəliklərdən ölmüş insanlar dəfn olunmuşlar. Nekropolun ən görkəmli abidələri IX-XIII əsrlərə aid kubşəkilli və qülləvarı türbələrdir. IX-X əsrlərə aid olan türbələr sadə quruluşlu olub, nekropolun cənub-şərq hissəsində yerləşir. Bu türbələr sərdabə və yerüstü hissələrdən ibarətdir. XII-XIII əsrlərə aid türbələr isə Naxçıvan memarlıq məktəbinin ən yaxşı nümunələri sırasına aid olmaqla yanaşı, həm də onlarda Orta Asiya memarlığının təsiri izlənir. Belə türbələr Səlcuqların görkəmli nümayəndələrinə məxsus olub. Təsadüfi deyil ki, həmin türbələr nekropolun şimal tərəfində bir-birilə üzvi surətdə bağlı olan kompleks təşkil edirlər.

Maraqlı faktlardan biri də odur ki, tədqiqatçılara görə, Xaraba Gilandakı qəbirlərin hamısı müsəlman qəbirləridir. Türbələrdə və ətrafındakı bəzi qəbirlərdə ölülər tabutda dəfn olunub. Məlumdur ki, Azərbaycanda tabutda dəfnetmə adəti XIV əsrə qədər davam edib. Digər tərəfdən, Məkkəyə və ya hansısa müqəddəs yerə aparılması nəzərdə tutulan (ya vəsiyyətə, ya da övladlarının arzusu ilə) ölülər də tabutlarda dəfn olunurdu. Xalq arasında belə qəbirlər "əmanət" adlandırılıb. Buradakı memorial abidələrin tikintisində mükəmməl tikinti texnikasından, mürəkkəb memarlıq üsullarından və keyfiyyətli tikinti materiallarından istifadə olunduğuna görə türbələr əsrlərlə təbii qüvvələrin və aşınmaların dağıdıcı təsirinə davam gətirə bilib. Bununla yanaşı, Xaraba Gilan ərazisi Naxçıvanda şəhər mədəniyyətinin ən möhtəşəm incilərinin qalıqlarını özündə bu gün də yaşatmaqdadır. Arxeoloq Bəhlul İbrahimlinin rəhbərliyi ilə burada aparılan tədqiqatlar nəticəsində aşkarlanan çoxsaylı maddi-mədəniyyət nümunələri, şəhər tikililəri, ərazi barədə tarixi mənbələrdə verilən məlumatlar bu şəhərin ticarət yolları üzərində mühüm nöqtələrdən biri olduğunu sübut edir. Naxçıvan ərazisində yerləşən ən möhtəşəm şəhər karvansaralarından biri də məhz Xaraba Gilandadır. Bu ərazidə arxeoloqlar tərəfindən şərti olaraq II və III məhəllələr adlandırılan məhəllələrin arasında yerləşən bu karvansara böyük bir qaya üzərindədir. Tədqiqatçıların qeydlərindən aydın olur ki, bu karvansara kompleksi yataq, məişət, təsərrüfat otaqlarından, anbarlardan və tövlələrdən ibarət olmuşdur.

Qeyd edək ki, son illərdə Xaraba Gilanda aparılan arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş maddi-mədəniyyət nümunələri bu qədim şəhərin zəngin tarixi və mədəniyyətindən xəbər verir. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Xaraba Gilan" arxeoloji ekspedisiyası ötən il Plovdağ arxeoloji abidələr kompleksində, Xaraba Gilan orta əsrlər şəhər yerində arxeoloji qazıntı işləri aparıb və tarixi əhəmiyyət daşıyan bir çox məlumatlar əldə edilib. Qazıntı işlərində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları da yaxından iştirak ediblər.

Tədqiqatlar zamanı qədim şəhərin birinci məhəlləsində böyük bir ikimərtəbəli ictimai yaşayış binasının bir hissəsi qazılıb və bu binanın I və II mərtəbələrinin iki otağı və müdafiə divarına bitişik bir otağı ilə bir dəhlizi qazılıb üzə çıxarılıb. Burada əsas diqqəti cəlb edən binanın I mərtəbəsinin mürəkkəb tağşəkilli memarlıq üslubunda tikilməsidir. Arxeoloji qazıntı zamanı dəridən tikilmiş qadın ayaqqabısı, müxtəlif naxışlı parçalar, XII əsrə aid nəfis şəkildə hazırlanmış qablar və sair aşkar olunub. Eyni zamanda buradan Eldənizlər və Hülakülər dövrünə aid mis sikkələr də tapılıb.

*Ümid edirik ki, arxeoloji tədqiqatların davam etdirilməsi növbəti dövrlərdə Azərbaycanın orta əsrlərdə mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuş Xaraba Gilan haqqında yeni məlumatların əldə olunmasına imkan verəcək.*

**Səbuhi HƏSƏNOV**
***Mənbə: "Naxçıvan Abidələri Ensiklopediyası"***

## “Naxçıvan-2017” Beynəlxalq Şahmat Festivalı başa çatıb

*Naxçıvan Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Naxçıvan-2017” Beynəlxalq Şahmat Festivalı qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.*

Tədbirdə festivalın baş hakimi Faiq Həsənov çıxış edərək şahmatçılara yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığını bildirib.

“C” qrupunda 6 yaş qrupu üzrə qaliblər mükafatlandırılıb. Belə ki, 8, 10 və 12 yaşlı oğlanların mübarizəsində müvafiq olaraq Atilla İbayev (Bakı), Yusif Abbasov (Quba) və Hüseyn Seyid (Ordubad), qızların mübarizəsində isə Zərifə Abbasova (8 yaş), Aydan Şükürova (10 yaş, hər ikisi Bakı) və Balakən təmsilçisi



Fidan Bayramova (12 yaş) qalib adını qazanıblar. Ümumi olaraq isə “C” qrupunun qalibi naxçıvanlı zəka sahibi Hüseyn Seyid olub.

“B” qrupunda əvvəlcə beynəlxalq əmsalı 0-1749 olan idmançılar mükafatlandırılıb. Bu nominasiyada Babək şahmatçısı Hatəm Kətanov qalib olub. Əmsalı 1750-1999 olan şahmatçıların mübarizəsində isə Biləsuvar təmsilçisi Xəzər Babazadə hamını qabaqlayıb. Gəncə şahmatçısı Amil Abbasov 7,5 xalla “B” qrupunu lider kimi başa vurub və baş mükafatı qazanıb. Digər iki pillədə 7 xalla Çingiz Rzayev (Quba) və Rəşad Zeynallı (Bakı) qərarlaşıblar.

Sonra yarışda yaxşı nəticə göstərmiş ən kiçikyaşlı şahmatçı və ən yaxşı qadın zəka sahibi mükafatlandırılıb.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş şahmat festivalının “A” qrupunun qalibi, ukraynalı beynəlxalq usta Valeri Qrinev olub. O, 7 xalla bütün rəqiblərini qabaqlayıb. 6,5 xal toplayan belçikalı qrossmeyster Vadim Malaxatko və azərbaycanlı beynəlxalq usta Misrətdin İsgəndərov ikinci və üçüncü pillələri bölüşüblər. Ümumilikdə, “A” qrupunda 12 zəka sahibi mükafatlandırılıb. Beynəlxalq festivalın qalibi Valeri Qrinevə kuboku və mükafatı Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov təqdim edib.

Sonda çıxış edən federasiyanın sədri ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının ildönümünə həsr edilmiş şahmat festivalının keçirilməsinin artıq ənənə halını aldığını bildirib və zəka sahiblərini növbəti ildə də keçiriləcək beynəlxalq şahmat festivalına dəvət edib.

Bununla da, “Naxçıvan-2017” Beynəlxalq Şahmat Festivalı başa çatıb.

## IV İslam Həmrəyliyi Oyunlarında iki idmançımız mübarizə aparacaq

Bu gün Bakıda IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi keçiriləcək. Oyunlarda 21 idman növü üzrə 57 dövlətin 6000-ə yaxın idmançısı mübarizə aparacaq.

IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan millisinin heyətində Naxçıvan idmançıları da iştirak edəcəklər. Belə ki, boks və sərbəst güləş millimizin heyətində iki idmançımız – Tayfur Əliyev və Hacı Əliyev uğur qazanmağa çalışacaq. “Bakı Kristal Zal-2”də təşkil olunacaq boks yarışlarına mayın 12-də start veriləcək və idmançımız Tayfur Əliyev 56 kiloqram çəki dərəcəsində rinqə çıxacaq. Püşkə uyğun olaraq bu çəkidəki idmançılar may ayının 13-də və 15-də döyüşəcəklər. Boks yarışlarında azarkeşlər mayın 17-də yarımfinal, mayın 18-də isə final görüşlərini izləyə biləcəklər.

Sərbəst güləşdə isə arazkeşlər daha çox 61 kiloqram çəki dərəcəsində mübarizə aparacaq naxçıvanlı idmançı, ikiqat dünya çempionumuz Hacı Əliyevdən uğur gözləyirlər. Bu idman növündə (yunan-Roma və sərbəst güləş) yarışlara mayın 17-də start veriləcək.

Qeyd edək ki, İslam dünyasından dünya idmanına körpü istiqaməti üzrə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında idmançılar ağır atletika, atıcılıq, basketbol, bədii gimnastika, boks, cüdo, futbol, güləş, həndbol, idman gimnastikası, karate, stolüstü tennis, su polosu, suya tullanma, taekvando, tennis, uşu, üzgüçülük, voleybol, yüngül atletika və zorxana idman növlərində qüvvələrini sınayacaqlar. İdmançılar 16 idman obyektində mübarizə aparacaqlar. İslamiadaya ən çox idmançı ilə Türkiyə millisi qatılıb. V Oyunları təşkil edəcək ölkə paytaxtımıza 345 atletlə gəlib. Azərbaycan turnirdə onlardan 10 nəfər az idmançı ilə mübarizə aparır – 335 nəfər. İlk “üçlük”də digər yer İran İslam Respublikasına məxsusdur. Cənub qonşumuz ölkəmizə 300 idmançı gətirib. Bakıda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasiminin keçirilmə saatı da artıq məlumdur. Yarışın Əməliyyat Komitəsi bildirib ki, İslamiada mayın 22-də saat 23$^{00}$-da başa çatacaq. Bağlanış tədbiri isə saat 20$^{00}$-da start götürəcək. Bağlanış da açılış mərasimi kimi, təxminən, 3 saat davam edəcək.

## Karate-do üzrə muxtar respublika açıq çempionatına yekun vurulub

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda karate-do üzrə Naxçıvan Muxtar Respublika açıq çempionatı keçirilib.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi açıq çempionat iki gün davam edib.

Çempionatın bağlanış mərasimində çıxış edən muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra idmanın inkişafı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilib. Ulu öndərimizin əsasını qoyduğu gənclər və idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkəmizdə idman sahəsində həyata keçirilən tədbirlər muxtar respublikamızı da əhatə edib, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib. Son 20 il muxtar respublikanın bədən tərbiyəsi və idman tarixində mühüm mərhələ təşkil edir.

Nazir vurğulayıb ki, təkcə bu ilin ötən dövrü ərzində idmançılarımız Azərbaycan birinciliklərində 58, Beynəlxalq turnirlərdə 49, Asiya çempionatlarında 2 medal qazanıblar ki, bunlardan da 5-i karate-do üzrə idmançılarımız tərəfindən qazanılıb.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov çıxışında ulu öndər Heydər Əliyevin idman siyasətindən və bu gün ölkəmizdə idmana göstərilən dövlət qayğısından bəhs edib. Bildirib ki, paytaxt Bakıda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da karate idman növü sürətlə inkişaf edir, uşaq, yeniyetmə və gənclər hər cür şəraiti olan arenalarda idmanla məşğul olurlar.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Azərbaycan Milli Karate Federasiyası tərəfindən təltif olunduğu Fəxri Diplom Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərovun təltif olunduğu Fəxri Diplom federasiyanın sədr müavini Nəriman Quliyevə, Naxçıvan Muxtar Respublikası gənclər və idman naziri Azad Cabbarovun təltif olunduğu diplom nazirə təqdim edilib.

12 yaş qrupunda 47 çəki dərəcəsində 200-ə yaxın idmançının iştirak etdiyi yarışda “Naxçıvan” komandası qalib adını qazanıb. Digər iki pillədə Bakı şəhər və Babək rayon komandaları qərarlaşıb.

Qalib komandalara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının diplom, medal və kubokları təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 15 may 2017-ci ildə hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 % həcmində hesablanmış behin miqdarı (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2018.25 | 707 | 201.83 |
| 2. | Dördkünc qızıl sikkə | ədəd | 1 | 6500 | 2275 | 650.0 |
| 3. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 2015 | 705 | 201.5 |
| 4. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 4032.60 | 1412 | 403.26 |
| 5. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2017.60 | 706 | 201.76 |
| 6. | Naxışlı qızıl sikkə | ədəd | 1 | 700.98 | 245 | 70.10 |
| 7. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1700 | 595 | 170.00 |
| 8. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1400 | 490 | 140.00 |
| 9. | “TİSSOT 1853” markalı qol saatı | ədəd | 1 | 1500 | 525 | 150.00 |
| 10. | “TİSSOT 1853 AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1800 | 630 | 180.00 |
| 11. | “LONGİNES” markalı 12 qaşlı qol saatı | ədəd | 1 | 1700 | 595 | 170.00 |
| 12. | “Louis Erard AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1300 | 455 | 130.00 |
| 13. | “VERTU ” markalı mobil telefon | ədəd | 1 | 8500 | 2125 | 850.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlaklara sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faiz həcmində behi 12 may 2017-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk prospekti 42) hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*- Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba keçirilməsini təsdiq edən sənədlərin surəti.*

Hərrac 15 may 2017-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir



Muxtar respublikamızın muzey bələdçiləri üçün Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən növbəti seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva “Muzey bələdçisinin davranış qaydaları” mövzusunda çıxış edib. Bildirib ki, muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir.

Vurğulanıb ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur.

Qeyd olunub ki, muzey bələdçiləri hər bir ziyarətçiyə diqqət göstərməli, muzey işi və muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, onların suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmalıdırlar. Bu gün muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra Cəlil Məmmədquluzadənin ev-muzeyində muzey bələdçisinin təqdimatında ekspozisiyaya baxış olub. Sonda ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

***İtmişdir***

Türkiyə vətəndaşı Karahan Onur Uğur oğlunun adına Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 392